“Balakən Azərbaycanın çox gözəl guşəsidir” İlham ƏLİYEV




# YENİ BALAKƏN

İCTİMAİ-SİYASİ QƏZET ✦ 7 (25) ✦ 31 iyul 2026-cı il

## Baş prokuror Balakən rayonunda vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.

İyulun 10-da Baş prokuror Kamran Əliyev Balakən rayon prokurorluğunun inzibati binasında Balakən, Zaqatala və Qax rayonundan olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror,rayon rəhbəri və rayon prokuroru xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rayonun mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 17 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

**Yeni Balakən**



## Ədliyyə naziri Fərid Əhmədov 3 iyul 2026-cı il tarixində Balakən rayonunda vətəndaşları qəbul edib

Qəbuldan əvvəl nazir Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Qəbulda Balakən, Zaqatala, Qax, Şəki, Oğuz və Qəbələ rayonlarından ümumilikdə 55 vətəndaşın ədliyyə fəaliyyəti ilə, eləcə də ədliyyə orqanlarında işə qəbulla bağlı müraciətləri dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı Nazirliyin aidiyyəti struktur qurumlarının rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, qəbul mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilib.

**Yeni Balakən**







## İqtisadiyyat nazirinin birinci müavini Balakəndə vətəndaşları qəbul edib

Balakəndə vətəndaşların sahibkarlığın inkişafı, güzəştli kreditlər, əmlak, vergi, sosial və digər məsələlərlə bağlı müraciətlərinə baxılıb.

İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev Balakən şəhərində Balakən, Zaqatala və Qax rayonlarından olan vətəndaşları qəbul edib. Qəbula gələn vətəndaşların sahibkarlığın inkişafı, güzəştli kreditlər, əmlak, vergi, sosial və digər məsələlərlə bağlı müraciətləri dinlənilib.

İqtisadiyyat Nazirliyinin aidiyyəti struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə keçirilən qəbul zamanı vətəndaşların hər bir müraciəti diqqətlə araşdırılıb, qaldırılan məsələlər üzrə müvafiq izahat və əsaslandırılmış cavablar verilib. Əlavə araşdırma tələb edən müraciətlər isə qanunvericiliyə uyğun qaydada icraata götürülüb.

Günün ikinci yarısında isə sahibkarlar,iş adamları ilə geniş tərkibdə görüş keçirilib.Görüşdə nazirliyin əməkdaşının slayd təqdimatında sahibkarlar üçün yaradılan yeni imkanlar, layihələr, güzəştlər barədə geniş məlumat verilib.Mövzu ətrafında geniş diskussiya keçirilərək sahibkarların təklifləri dinlənilmiş,onları maraqlandıran suallara İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev və görüşə on-layn qoşulan nazirliyin aidiyyatı şöbələrinin rəhbərləri tərəfindən ətraflı,dolğun cavablar verilib.Görüşdə iştirak edən rayon rəhbəri Natiq Ağayev sonda söz alaraq qonaqlara Balakənə,sahibkarlarımıza olan diqqətinə,rayonumuzun iqtisadi cəhətdən inkişaf etdirilməsi istiqamətində mühüm addımların atılması üçün sahibkarlara verdikləri dəstək üçün təşəkkürünü bildirərək,bu cürə görüşlərin gələcəkdə də davam etməsini,belə gözəl tədbirlərin mütəmadi olmasının arzuladığını bildirdi.

**Yeni Balakən.**



## MİLLİ MƏTBUAT GÜNÜNDƏ BALAKƏNDƏ SƏMİMİ GÖRÜŞ






Balakən Rayon İcra Hakimiyyətində Milli Mətbuat Günü münasibətilə bölgədə fəaliyyət göstərən media nümayəndələri ilə görüş keçirildi. Rayon rəhbəri Natiq Ağayevin təşəbbüsü ilə təşkil olunan tədbir çay süfrəsi arxasında səmimi diskussiya şəklində baş tutdu.

İştirakçıları salamlayan Natiq Ağayev mətbuat sahəsində görülən işlərdən məmnunluğunu ifadə etdi. O, yazılı, görsəl, səsli və internet üzərindən fəaliyyət göstərən media nümayəndələrinin rayonla bağlı xəbərləri obyektiv və operativ şəkildə işıqlandırdıqlarını vurğuladı. Rəhbər həmçinin jurnalistlərin fəaliyyətində qarşılaşdıqları çətinlikləri dinləməyə və imkan daxilində dəstək göstərməyə hazır olduğunu bildirdi.

### DİSKUSSİYA VƏ ƏMƏKDAŞLIQ RUHU

Saat yarımdan çox davam edən görüşdə müxtəlif media sahələrinin nümayəndələri onları maraqlandıran sualları səsləndirdilər. Tədbir boyunca rayonun inkişafına mətbuatın necə dəstək ola biləcəyi mövzusu da müzakirə olundu. Media nümayəndələri gələcəkdə daha sıx əməkdaşlığa maraqlı olduqlarını qeyd etdilər.

Rayon rəhbəri mətbuatın Balakənlə bağlı xəbərləri doğru və obyektiv şəkildə çatdırdığına görə təşəkkürünü bildirdi. Tədbirin sonunda isə xatirə şəkli çəkildi, bu görüşün yaddaşlarda xoş bir iz buraxacağına işarə edildi.

### SON SÖZ

Mətbuat cəmiyyətin güzgüsüdür. Rayonun inkişafında rolu əvəzsizdir. Mətbuat yalnız informasiya ötürücüsü deyil, həm də ictimai rəyin formalaşmasında mühüm vasitədir. Rayon rəhbərliyi ilə media nümayəndələrinin səmimi dialoqu bölgənin ictimai həyatında yeni əməkdaşlıq imkanlarının açılmasına zəmin yaradır.

"Biz,mətbuat olaraq bölgənin gündəlik həyatını işıqlandırmaqla yanaşı, rayonun problemlərinin həllinə də töhfə vermək istəyirik.”- “Yeni Balakən” qəzeti.

**Ramazan Abal**

# Balakəndə Polis Günü: Xalqın təhlükəsizliyi uğrunda şərəfli xidmət










Bu gün Balakən Rayon Polis Şöbəsində Azərbaycan Polisi Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdə rayon icra hakimiyyətinin başçısı Natiq Ağayev, hüquq-mühafizə orqanlarının rəhbərləri, təqaüddə olan polis əməkdaşları və RPŞ-nin şəxsi heyəti iştirak ediblər.

İştirakçılar əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül-çiçək düzüb, xatirəsinə ehtiramlarını bildiriblər. Ardınca Şəhidlər xiyabanı ziyarət olunub. Rayon Polis Şöbəsində davam edən mərasimdə Ümummilli Lider Heydər Əliyevin, şəhidlərimizin, o cümlədən xidməti vəzifəsini yerinə yetirərkən həlak olan polis əməkdaşlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni isə bu dəfə xüsusi bir ruhla – canlı ifada səsləndirildi.

Giriş sözü ilə çıxış edən RPŞ-nin rəisi, polis polkovniki Çingiz Aslanov əməkdaşları və onların ailə üzvlərini "2 iyul – Azərbaycan Polisi Günü" münasibətilə təbrik edib. O, daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun təbrikini çatdıraraq, Azərbaycan polisinin yaranma tarixindən, çətin illərdə – xüsusilə Birinci Qarabağ müharibəsində göstərilən fədakarlıqlardan danışıb. O illərdə şəhid olmuş Balakənli polis işçisi, Milli Qəhrəman Ramazan Cirinqovun əziz xatirəsini də andı. Çingiz Aslanov vurğulayıb ki, Balakən polisi gecə-gündüz, yay-qış bilmədən rayonun asayişinin keşiyində dayanır, cinayətkarlıqla mübarizə aparır.

Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev də çıxışında polis əməkdaşlarını təbrik edib, onların ölkənin müstəqilliyinin qorunmasında və daxili sabitliyin təmin olunmasında oynadığı mühüm rolu qeyd edib. O, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə aparılan hüquqi islahatların nəticəsində polisin vahid hüquq-mühafizə orqanı kimi formalaşdığını, bu gün isə Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində cinayətkarlığa qarşı mübarizədə, asayişin və təhlükəsizliyin təmin olunmasında böyük uğurlar qazandığını bildirib.

44 günlük Vətən müharibəsində Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının xüsusi qəhrəmanlıq göstərməsi də tədbirdə xüsusi vurğulanıb. Sonda xidməti fəaliyyətində fərqlənən bir qrup polis əməkdaşına Fəxri Fərmanlar və mükafatlar təqdim olunub, təqaüddə olan əməkdaşlara hədiyyələr verilib. Tədbir xatirə şəkillərinin çəkilməsi ilə başa çatıb.

Balakəndə keçirilən Polis Günü tədbiri bir daha sübut etdi ki, Azərbaycan polisi yalnız qanunun keşiyində duran qurum deyil, həm də dövlətin müstəqilliyi, xalqın təhlükəsizliyi və sabitliyi uğrunda fədakarlıqla çalışan, şərəfli xidmət yolunu davam etdirən bir qüvvədir.

**Yeni Balakən**

# Sülhün və Həqiqətin Şuşa Manifesti: Uğurlu Media Diplomatiyasının Növbəti Təntənəsi




Yola saldığımız ay Azərbaycanda ictimai-siyasi gündəmi ən çox zənginləşdirən hadisə, şübhəsiz ki, Şuşa Qlobal Media Forumu oldu. 13-14 iyul tarixlərində keçirilən IV Qlobal Media Forumu miqyası və müzakirə olunan mövzuların aktuallığı baxımından həm regional, həm də qlobal səviyyədə ciddi rezonans doğurdu. Tədbir təkcə medianın daxili problemlərinin müzakirə olunduğu lokal bir toplantı deyil, beynəlxalq informasiya təhlükəsizliyi və diplomatiyanın vacib platformalarından biri kimi yadda qaldı.

Bu dəfəki forum öz missiyasına və gündəliyinə görə əvvəlkilərdən tamam fərqlənirdi. Forumun əsas mövzusu "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" adlanırdı. Nəzərə alsaq ki, ölkəmiz artıq post-münaqişə dövrünü yaşayır, bu mövzu xüsusi aktuallıq kəsb edir. Vətən müharibəsi dövründə Azərbaycan mətbuatı, başda Müzəffər Ali Baş Komandan İlham Əliyev olmaqla, qlobal dezinformasiya dalğasına qarşı sərrast və sistemli mübarizə aparırdı. Dövlət başçısının xarici media mənsublarına verdiyi müsahibələr zamanı nümayiş etdirdiyi ustad dərsləri Azərbaycan mediası üçün strateji yol xəritəsinə çevrildi. Bunun nəticəsində mətbuatımız müharibə dövrünün informasiya cəbhəsindən üzüağ çıxmağı bacardı.

Bu gün isə reallıqlar tamamilə fərqlidir. Artıq işğaldan azad edilmiş bölgələrdə genişmiqyaslı quruculuq işləri gedir, eyni zamanda Ermənistanla tarixi sülh müqaviləsinin imzalanması istiqamətində ciddi addımlar atılır. Regionda yeni infrastruktur layihələrinin, o cümlədən Zəngəzur dəhlizinin reallaşması an məsələsidir. Hazırkı mərhələdə əsas hədəf medianı yeni çağırışlara — sülh dövrünə hazırlamaq və regionda etimad mühitinin yaradılmasında mətbuatın imkanlarından maksimum istifadə etməkdir.

### Yeni Geosiyasi Reallıqların Şuşa Platforması

Dünyanın 53 ölkəsindən 160-a yaxın media rəhbəri, ekspert və dövlət rəsmi şəxsinin Şuşada toplanması Azərbaycanın formalaşdırdığı yeni geosiyasi reallıqların beynəlxalq aləmə çatdırılması üçün unikal imkan yaratdı. Xarici jurnalistlərin işğaldan azad olunmuş ərazilərə, xüsusən də Xocalı şəhərinə və Memorial Kompleksinə etdikləri səfərlər onlara bölgədəki tarixi dağıntıların miqyasını və hazırkı sürətli bərpa-quruculuq proseslərini öz gözləri ilə görməyə şərait yaratdı. Bu, həqiqətlərin dünyaya birbaşa və obyektiv şəkildə çatdırılması üçün misilsiz bir fürsət idi.

Forumun ən mühüm və strateji hissəsi, şübhəsiz ki, Azərbaycan Prezidenti İlham Əliyevin xarici media nümayəndələri ilə keçirdiyi geniş görüş və sual-cavab sessiyası oldu. Dövlət başçısının səsləndirdiyi fikirlər beynəlxalq münasibətlər müstəvisində mühüm strateji tezislər kimi qəbul edilməlidir. Prezidentin bəyanatları dünya mediasında geniş işıqlandırıldı və beynəlxalq analitiklər tərəfindən əhatəli şəkildə təhlil olundu. Bu amil həm Azərbaycanın qüdrətli dövlətə çevrildiyini, həm də dövlət başçısının qlobal siyasətdəki yüksək nüfuzunu aşkar şəkildə sübut etdi.

Dövlət başçısı Azərbaycanın qlobal və regional güclərin təzyiqlərinə baxmayaraq, tam müstəqil və milli maraqlara söykənən siyasət yeritdiyini bir daha diqqətə çatdırdı. Bununla da ən yüksək səviyyədə sübut olundu ki, Azərbaycanın suverenliyi sarsılmaz dayaqlar üzərində qurulub.

### Nəqliyyat, Enerji və Ədalətli Dünya nizamı

Forum zamanı Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycanın Avrasiyanın əsas tranzit mərkəzlərindən birinə çevrilməsi strateji hədəf kimi vurğulandı. Cənubi Qafqazda müharibə vəziyyətinin aradan qalxması və Zəngəzur dəhlizinin reallaşması istiqamətindəki proseslər ölkəmizi dünyanın ən etibarlı nəqliyyat qovşaqlarından birinə çevirir. Azərbaycan yürütdüyü düşünülmüş siyasətin nəticəsi olaraq artıq Şərqlə Qərbi birləşdirən fundamental bir körpü rolunu oynayır.

Tədbirin iqtisadi gündəliyinin əsasını isə enerji məsələləri təşkil etdi. Ölkəmizin qlobal bazara, xüsusən də Avropaya təbii qaz ixracını artırması və qitənin enerji təhlükəsizliyinin şaxələndirilməsində oynadığı kritik rol geniş müzakirə edildi.

Azərbaycanın müstəmləkəçiliyə qarşı dünya miqyasında apardığı mübarizə forum çərçivəsində də öz əksini tapdı. Bakı Təşəbbüs Qrupunun fəaliyyəti kontekstində yeni müstəmləkəçilik meyillərinə qarşı beynəlxalq müstəvidə aparılan prinsipial mübarizəyə toxunuldu. Azərbaycan hər zaman haqq mübarizəsi aparan kiçik xalqların böyük dövlətlər tərəfindən istismarına qarşı şərəfli mövqe nümayiş etdirmişdir. Bu, ölkəmizin beynəlxalq hüququn prinsiplərinə və ədalətli dünya nizamına olan sadiqliyini bir daha sübut edir.

### Rəqəmsal Çağırışlar: Süni İntellekt və "Media Terroru"na Qarşı Mübarizə

Forumun əsas qayələrindən biri də mediada təhlükəsiz mühitin yaradılması və müasir dövrün əsas trendinə çevrilmiş süni intellektin jurnalistikaya təsir imkanları ilə bağlı idi. Medianın texnoloji transformasiyası tədbir boyu geniş şəkildə müzakirə olundu. Süni intellekt əsrində obyektiv jurnalistikanın qorunması, "deepfake" və manipulyasiya xarakterli dezinformasiya dalğalarına qarşı beynəlxalq koordinasiyanın qurulması zərurəti xüsusi qeyd edildi. Jurnalistikanın etik çərçivələrinin yenidən formalaşdırılması və rəqəmsal platformalarda təhlükəsiz informasiya mühitinin yaradılması istiqamətində ciddi panellər keçirildi.

Bu müzakirələr Azərbaycanın qlobal müstəvidə hər zaman "obyektiv xəbər" siyasətini dəstəklədiyini göstərir. Uzun illərdir ki, ölkəmizə qarşı müxtəlif xarici güc mərkəzləri tərəfindən məqsədli dezinformasiya kampaniyaları aparılır. Azərbaycan dünyada "media terroru"ndan ən çox əziyyət çəkən ölkələrdən biri olduğu üçün bu mövzu bizim üçün xüsusi əhəmiyyət daşıyır.

Nəticə etibarilə, IV Şuşa Qlobal Media Forumu sadəcə bir media platforması olmaqdan çıxaraq, Azərbaycanın qlobal informasiya məkanında hücum taktikasına əsaslanan uğurlu media diplomatiyasının bariz nümunəsinə çevrildi. Şuşanın simvolik çəkisi və bu mötəbər tədbir vasitəsilə dünyaya həm də sülhün, ədalətin və həqiqətin bərpası mesajı qətiyyətlə ötürüldü.

**Zeynal Əmrəliyev**

# MÜƏLLİMLİK PEŞƏSİNƏ HƏSR OLUNAN ÖMÜRLƏR



15 iyul 2026-cı il tarixində ETİHİ Balakən Rayon Komitəsi, Şəki-Zaqatala Regional Təhsil İdarəsi və Balakən Rayon üzrə Təhsil Sektorunun birgə təşkilatçılığı ilə əlamətdar tədbir keçirildi. Çalışmanın yaş həddinə çatmış Qazbinə kənd A.Əsgərov adına tam orta məktəbin direktoru Əliyev Abdulla Zeynəddin oğlu və Roçəhməd kənd ümumi orta məktəbin direktoru Hüseynova Gülbiçə Həsən qızı üçün yubiley mərasimi təşkil olundu.

Tədbirdə Şəki-Zaqatala Regional Təhsil İdarəsinin müdiri Gunay Mahmudova, tədrisin keyfiyyəti sektorunun müdiri Alqış Həsrətov, ETİHİ Balakən Rayon Komitəsinin sədri Ramazan Molulov, Balakən Rayon üzrə Təhsil Sektorunun müdiri Mehparə Mirzəyeva və sektor əməkdaşları iştirak edərək yubiley sahiblərinə dərin ehtiramlarını bildirdilər.

Çıxış edən natiqlər uzun illər təhsil sahəsində fədakar fəaliyyət göstərən müəllimlərin pedaqoji xidmətlərini yüksək qiymətləndirərək onlara sağlamlıq, yeni uğurlar və xoşbəxtlik arzuladılar. Müəllimlərin məktəb rəhbərliyi, şagirdlərin vətənpərvərlik və azərbaycançılıq ruhunda tərbiyəsi, ziyalılıq nümunəsi göstərməsi xüsusi vurğulandı.

ETİHİ Balakən Rayon Komitəsi tərəfindən hər iki müəllimə fəxri fərman təqdim olundu. Hədiyyələr isə Şəki-Zaqatala Regional Təhsil İdarəsinin müdiri Gunay Mahmudova tərəfindən yubiley sahiblərinə təqdim edildi.

Bu tədbir bir daha sübut etdi ki, müəllimlik peşəsi yalnız bilik ötürmək deyil, həm də cəmiyyətə dəyər qatmaq, gənc nəsli milli-mənəvi dəyərlərə bağlı yetişdirmək missiyasıdır. Balakən təhsil ictimaiyyəti öz fədakar müəllimlərini qürurla yad edir və onların yolunu davam etdirəcək yeni nəsil pedaqoqlara güvənir.

Yeni Balakən qəzetinin redaksiyası adından yubiley sahiblərini ürəkdən təbrik edir, gələcək həyatlarında uğurlar arzulayırıq.

**Yeni Balakən**

# "Media azadlığı – sərbəstlik yox, məsuliyyət"

Sosial şəbəkələrin varlığı, ordakı "sərbəstliyin" müsbət təsirləri olduğu qədər mənfi təsirləri və tərəfləri də var. Sosial şəbəkə KİV aləti olaraq əlbəttə ki, kütləvi informasiya yayma səlahiyyəti olan, dövlət tərəfindən rəsmi sənədlə, şəhadətnamə ilə icazəsi verilmişlər tərəfindən istifadə olunduqda bu zaman Media haqqında Azərbaycan Respublikası Qanununun tələbləri çərçivəsində fəaliyyət göstərir, informasiya yayıcısı da yaydığı informasiya haqqında qanun qarşısında məsuliyyət daşıyır.

**Media haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu və 13-cü bəndlərinə uyğun olaraq, media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir...

Qanunun başlanğıcından da göründüyü kimi informasiya ilə işləmək hər yoldan keçənin,əlində mobil telefon olanın,140 manat verib sayt açanın işi deyil. Dövlətin verdiyi icazə, şəhadətnamə olmadan kütləvi informasiya yaymaq, yayımı ilə məşğul olmaq qadağandır. Bu qadağanı pozmaq cinayət olduğu kimi qeyri qanuni KİV-lər də bu gün qanun dilində reket "media" adlanır. Bunlara qarşı dövlətin güc strukturları, aidiyyatı qurumları mübarizə aparır. Sənədi (icazəsi) olan KİV-lər də informasiya yaydıqları zaman məlumatın,informasiyanın dəqiqliyi, qərəzsiz və tərəfsiz olması barədə məsuliyyət daşıyırlar.

Bəzi "KİV"-lər, əsasən də TikTok sosial şəkəsi üzərindən paylaşım edənlər lap şitini çıxarıb, ağını ediblər medianın. Belə ki, dünən axşam saatlarında Elgün (qadın) adlı sosial şəbəkə istifadəçisinin "imran.imo7" tiktok hesabında Balakən RMX və rəhbərliyi haqda səsləndirdiyi fikirlər, icazəsiz çəkdiyi video görüntü ilə rastlaşdım. Bir az sonra da bu istifadəçinin paylaşımından özü üçün informasiya düzəldən, ağlına gələn cürə, necə gəldi başlıq da qoyub, mənbədən də ikiqat artıq məsuliyyət daşıyan "1xeber" adlı (xəbər sözünü azərbaycanca yaza bilməyən), tiktok üzərindən informasiya yayan "media qurumu" guya nəsə "iş" tutub, informasiya paylaşıb... Soruşsan bəlkə də Balakən rayonunun harda yerləşdiyini bilməzlər, belə paylaşım edənlərin böyük əksəriyyəti nə balakənli deyillər, nə də Balakən və balakənli üçün canı yanan deyillər. Sadəcə biraz savadsız, heç nəyi araşdırmadan inanan izləyiciləri və digərləri qarşısında guya reytinqini yüksəltmək üçün bu cürə dedi-qodu, əsilsiz, astarsız, böhtançı və cinayət xarakterli paylaşımları ilə könül bulandırırlar.

"Yeni Balakən" olaraq biz məsələyə aydınlıq gətirmək üçün Balakən MRX Puplik Hüquqi Şəxs,direktor Dilbər xanım Quliyeva ilə əlaqə saxladıq. Əvvəla onu deyək ki,Dilbər xanım o böyük müəssisəni gəzərkən,palatalara baş çəkərkən və ya TƏBİB rəhbərliyindən icazəsini alıb hansısa tədbirə qatılarkən bunu Elgünlərə bildirmək məcburiyyətində deyil. Rəhbərlik üzrlü səbəblərdən işdə olmadıqda bu o demək deyil ki, orda cavabdeh yoxdur. Dilbər xanımdan birinci olaraq soruşduqda ki, -"1xeber"in onunla əlaqə saxlayaraq informasiyanı dəqiqləşdirməsi oldumu, sizin fikrinizi, açıqlamanızı soruşdumu?-cavabı: Xeyr - oldu. Bəs həmən "1xəbər" bu barədə TƏBİB-dən maraqlanıbmı?- yenə də öyrəndik ki, - xeyr. Bu o deməkdir ki, qarşı tərəfin fikrini öyrənmədən, məlumatı dəqiqləşdirmədən, Elgünün şəxsi qərəzlik hərəkətinə dəstək və cinayət əməlinə ortaq olaraq Balakən MRX-na qarşı əsassız, yalan iddia qaldırmaqla müəssisənin və rəhbərliyin nüfuzuna xələl gətirmiş, məssisəyə qarşı cinayət xarakterli addım atıb. Müəssisənin və rəhbərliyin də buna adekvat olaraq mağdur, zərərçəkən qismində həm Elgünə, həm də "1xeber"e qarşı məhkəmə iddiası qaldırmağa tam haqqı, hüququ var. Müəssisə artıq bu istiqamətdə addımını atıb. O ki qaldı, Elgünün və ona istinadən "1xeber"in iddia etdiyi kimi şəkərli diabet xəstəsi olan Mustafayev İmrana xəstəxana tərəfindən pulsuz verilən dərmanla, testlərə, onların verilməməsinə, pulla satılmasına - bunlar yalandır. Xəstəxana rəhbərliyin bizə və TƏBİB-ə təqdim etdiyi sənədlərdə də açıq aydın görünür ki, Mustafayev İmran hər ay mütəmadi olaraq aidiyyatı dərmanlarla və testlərlə ödənişsiz təmin olunur. Ən son Mustafayev İmran Vəli oblu 02/07/2026 tarixdə Metformin 1000 №30, Diabzid M №30,Test 1 qutu dövlət tərəfindən aylıq olaraq ayrılan kvotasını almışdır. Gündə 1 dəfə test olunur, sutkada 1 dəfə 1 tablet olaraq da qəbul edilən dərmanlardır.Xanımın "tələbi" əlavə olaraqdan başqalarına ayrılan paydan verilməsi idi. Bu tələb qanunsuzdur, qeyri etikdir, qeyri vicdanidir. Rəhbərlik buna getmədiyi üçün "iddiaçılar" şantaj üsuluna əl atmışlar.




Azərbaycan hüquq dövlətidir. İnformasiya yayımı yalnız qanun çərçivəsində, rəsmi icazə ilə mümkündür. Sosial şəbəkələrdə əsassız iddialar və böhtan xarakterli paylaşımlar isə məsuliyyətsizliyin, savadsızlığın və cinayət əməlinin göstəricisidir. Balakən RMX rəhbərliyi bu cür hallara qarşı hüquqi müstəvidə mübarizə aparmaqda haqlıdır. Cəmiyyətin sağlam informasiya mühitinə sahib olması üçün hər birimiz məsuliyyətli olmalı, yalnız rəsmi və etibarlı mənbələrə güvənməliyik.

**Yeni Balakən**

# Balakəndə sel-fəlakətinin ağır nəticələri









İntensiv yağan yağışlar ölkənin bir çox bölgəsində olduğu kimi Balakən rayonunda da ciddi fəsadlara yol açıb. Püştətala, Kortala, Beçəğar və İtitala kəndlərində sel-fəlakəti nəticəsində vətəndaşların evlərinə, şəxsi təsərrüfatlarına böyük ziyan dəyib. Mal-qara, toyuq-cücə, arı ailələri sel sularına qərq olaraq axıb gedib. Sakinlər gücləri çatdığı qədər əmlaklarını və təsərrüfatlarını xilas etməyə çalışıblar.

Rayon rəhbəri Natiq Ağayev vəziyyətlə şəxsən maraqlanaraq Püştətala, Kortala, Beçəğar və İtitala kəndlərində olub, sakinlərlə görüşərək onların problemlərini dinləyib. O, fəlakətin nəticələri ilə yerində tanış olub və zərərin aradan qaldırılması üçün aidiyyəti qurumlara tapşırıqlar verib.

Qeyd edək ki, Püştətala, Kortala və Beçəğar kəndlərində Balakən çayı, İtitala kəndində isə Katex çayı məcrasından çıxaraq kəndlərdə evlərə və şəxsi təsərrüfatlara daxil olub. Bu səbəbdən bir çox ailə maddi ziyana məruz qalıb, kənd təsərrüfatı sahələrində ciddi itkilər yaranıb.

Hazırda fəlakətin nəticələrinin aradan qaldırılması istiqamətində tədbirlər görülür, sakinlərə dəstək göstərilir.

**Yeni Balakən**

# İtitalada ümumrayon iməciliyi – sel fəsadlarının aradan qaldırılması





Bu ilin iyul ayının 7-dən 8-nə keçən gecə Balakənin bir neçə kəndində, baş verən güclü leysan yağışı sel-fəlakətinə səbəb oldu. Təbiətin qəfil şiddəti kəndlərdə evlərə, təsərrüfatlara ciddi zərər vurdu, bir çox evlər həyətləri ilə birlikdə məcrasından çıxan çayların palçıqlı suları altında qaldı.

Fəlakətin ertəsi günü – iyulun 8-də rayon rəhbəri Natiq Ağayev kəndlərə baş çəkərək vəziyyətlə yerində tanış oldu və zərərin aradan qaldırılması üçün təcili tapşırıqlar verdi. Bu tapşırıqların davamı olaraq bu gün İtitala kəndində ümumrayon iməciliyi təşkil olundu.

İməcilikdə rayon təşkilatları, kənd nümayəndəlikləri, regional mərkəzlərin nümayəndələri, texnika və işçi qüvvəsi birgə çalışaraq kəndi yenidən yaşanır hala gətirməyə səfərbər oldular. Qaz idarəsi 150 evə gedən əsas xəttdəki sızmanı aradan qaldırdı, elektrik şəbəkəsi zədələnmiş xətləri bərpa etdi, meliorasiya təşkilatı ağır texnika ilə həyətləri lildən təmizlədi. Fövqəladə Hallar Nazirliyinin əməkdaşları pompalarla suları çəkdi, yol idarəsi kəndə qum və çınqıl daşdı, GEM isə evləri və həyətləri dezinfeksiya etdi.

Mədəniyyət, səhiyyə və təhsil sahələrindən gələn nümayəndələr də kənddəki müəssisələrə dəymiş zərəri aradan qaldırmaq üçün canla-başla çalışdılar. Bəzi təşkilatlar artıq üç gündür kənddə gecəli-gündüzlü fəaliyyət göstərərək sakinlərə dəstək olurlar.

Bütün bu işlərin koordinasiyası rayon fövqəladə hallar komissiyasının sədri Turan Dibirovun rəhbərliyi ilə həyata keçirilir. O, hər bir sakinin sözünü səbrlə dinləyir, onların dərdinə şərik olur, dövlətin gücünə və qayğısına inandıraraq yalnız olmadıqlarını hiss etdirir.

İtitalada başlanan bu iməcilik həm fəlakətin fəsadlarını aradan qaldırmaq, həm də birliyin gücünü göstərmək baxımından əlamətdar oldu.

**Yeni Balakən**





# Su problemi

Susuzluq ele problemdir ki,bundan insan da,heyvan da,bitki də əziyyət çəkir. Kim nə dərəcədə məsələni həll edə bilir-onu əldə etmə əzmindən, texnologiyasından anlamaq olur. Heyvanlar axtarır, suyun olduğu yerə qədər əziyyət çəkir, əzmlə gedirlər, tapırlar, istifadə edirlər. Bitkilər gündüzün istisinin, gecənin sərinliyinin konsentrasiyanın yaratdığı nəmi qəbul edib su ehtiyacını təmin edir, ən ekstrimal vəziyyətdə.Bəs insan nə edir? İnsan şüurlu varlıqdır. Fərdi olaraq bir sıra ehtiyaclarının (barınma,qorunma,var olma, yaşama və sairə) təminatında çətinlik çəkdikləri üçün insanlar toplu halda, toplum olaraq yaşarlar.Toplum olaraq yaşamda insanları ətrafında birləşdirən bir istək, amal, ideologiya olur hansı ki, təməl ehtiyaclar mərkəzlidir. Bu zaman ortaya qanunlar, qaydalar, idarəetmə, xidmət etmə,qoruma,nəzarət və digər funksiyalar çıxır. Bunların da içindən xidmət etmə funksiyasını həyata keçirən bir sıra xidməti təşkilatlar, qurumlar yaranır. İnsan da su ehtiyacını bunlardan biri vasitəsilə əldə edir. Məhz bu xidmət sayəsində insan su üçün axtarışa çıxmır, harasa getmir, hardan necə gəldi natəmiz su əldə etmir. Su onun evinə, əlinin altına, birbaşa istifadəsinə gətirilir və buna xidmət deyilir...

İçməli su problemi hər yerdə var. Bu problem adətən orda su olmadığı, tapılmadığı zaman olur. Bizdə də su problemi var amma bu suyun yoxluğundan deyil, suyun insanımıza çatdırılmasındadır. Yəni bizim problemimiz su deyil, xidmətin hardasa yoxluğu qədər yetərsizliyi, zəifliyi, kəm kəsidir. Balakənin hər zaman suyu var amma o suyu Balakənlinin əlinin altına daimi olaraq çatdıracaq xidməti yox dərəcəsindədir. Personal var, texnika yoxdur, texnika-personal olanda maliyyə yoxdu, maliyyə olanda material yoxdur, material tapılanda bürokratik əngəllər var, plan-proje olanda büdcə olmur. Konkret olaraq bir məsələ A-dan Z-yə heç zaman köklü olaraq həll olunmur. Niyə? Halbuki nəzəri olaraq da, praktik olaraq həll hər zaman vardır.

Balakən şəhəri üçün içməli suyun daimi təminatı məsələsinin kökündən həlli ilə əlaqədar bəzi işlər görülüb, indi də daha qalıcı, daimi yollar aranır. Daha əvvəl görülən işlər (içməli ana su xəttinin başında qazılmış 10 artezian quyusu) və digər görülən müvəqqəti işlər fayda vermədikcə, problem olduğu kimi qaldıqca insanı daha geniş düşünməyə,çarə axtarmağa məcbur edir. Amma bütün bunlar edilirkən nədənsə daha öncələri bu məsələ necə həll edilmişdi və yaxud problem hardan, niyə yarandı deyə keçmişə nəzər salınmır. Bəlkə də ən doğru yol daha əvvəl istifadə olunurdu.

Şəhərə gələn ana su xəttinin başlanğıcı Salban kəndinin girişindəki su anbarından başlayır.Mahamalar kəndindən keçərək şəhərə daxil olur.Sovet dövründən var olan bu ana xəttin üzərində, Mahamalar ərazisində o zaman da, bu gün də 4 ədəd növbətçi artezian quyusu var. Bu quyular 150 mm diametrli borularla yerləşdikləri müxtəlif nöqtələrdən ana xəttə (ana xəttin diametri 300 mm) qoşulu durur.O 4 növbətçi artezian quyusundan bu gün sadəcə biri, Ə.Ansuski küçəsindəki quyu işləyir. Mahamalar bələdiyyəsinin həyətindəki quyunun transformatorunun yağı, Qoşa bulaq adlanan yerdəkinin(əvvəl vardı) transformatoru yoxdu, Qoşa bulaqdan biraz yuxarıdakı artezianın isə motoru yanıb. Sovet vaxtında, sonralar da belə sel-fəlakət hallarında, güclü yağışlar nəticəsində dağ çayları bulananda, yayda çaylarda su azalanda köməyə bu 4 artezian gələrdi, ana xəttə qoşulur, şəhəri tam olaraq təmin edirdi. Bəs indi nə oldu? Demirik ki, bu tam həlli demekdir problemin amma dar ayağın saxlanğıcıdır, ehtiyatımızdır. Gəlin ehtiyacımızın ehtiyatını sağlam, işlək tutaq ki,dar zamanda belə lələyün qalmayaq. Hər kəs əlimizi daşın altına qoyaq.Bəlkə elliklə həll edək bu problemi?.. İgid oğlanlarımız Qarabağ problemini həll etdi, imkanlı oğlanlarımız da bəlkə bu su “problemini” həll etsin..?






**Yeni Balakən**

# ZARAFATA DÖNƏN BÖYĞK İMTAHANIMIZ!

Hər il bu vaxtlar ölkədə böyük bir tədbirin məyusluqla bitən final mərhələsi yaşanır. Xeyr, söhbət hansısa çempionatdan getmir. Məsələ çox daha qəlizdir: qəbul imtahanlarının nəticələrinin elan olunması.

Bu sizə elə-belə elan olunma kimi gəlməsin. Söhbətin start mərhələsi imtahanın özündə başlayır. On bir il məktəbi oxuyursan, bir ətək pul tökürsən; üstündə valideyn basqısı, müəllim nəzarəti, əsgərlik məsələsi, gəlin köçmək söhbəti - bunları düşü-nə-düşünə gedirsən imtahana. Açırsan sual kitabçasını və ilk andaca sənə elə gəlir ki, bu, sadəcə, bir zarafatdır. Çünki ilk anda görürsən ki, bu suallar sənlik deyil. Ha gözləyirsən ki, kimsə ortaya çıxıb: "Əziz abituriyentlər, bu, bir zarafatdır" - desin. Görürsən ki, hamı ciddi işi ilə məşğul olur, boş xəyalları buraxıb girişirsən kitaba. Bir az düşünəndən sonra görürsən ki, lap o qədər də deyil, duyuq düşmək olur. Amma və lakin suallar çətindir.

Ən problemli məsələ də budur ki, bu suallar hər il daha da çətinləşir. Ədəbiyyatdan verilən sualları rəhmətlik Nizamiyə göstərsələr, "Xəmsə"ni yazmağına min peşman olar. Suallarda Məcnunu elə təqdim edirlər ki, Leyli ona o halda nəinki aşiq olmaz, hətta halına acıyıb ağlına dua oxuyar. Bizim dövrümüzdə informatika fənnindən sual düşmürdü, indi düşür deyirlər. İmtahandan gələn gənclərdən biri bu fəndən düşən sualların çətinliyini izah etdi. Sizi inandırım ki, o sualı o formada nəinki o gənc, heç NASA-da həll edə bilməzdilər. İlon Mask-a o sualı versələr, qazandığı pula lənət oxuyub kosmosla əlaqəsini kəsərdi. Bu sualları hazırlayanlar, hər halda, alimlərdir və mənim hər imtahandan sonra AMEA-ya olan ümidim daha da artır. Belə suallar hazırlamağı bacaran alimə atomu versən, elə parçalayar ki, heç tikəsini də tapmazlar.

Sualların çətinliyi fonunda daha bir maraqlı məqam isə hər il qəbul ballarının və təhsil haqlarının artmasıdır. Ortabab bir universitetdə İKT mütəxəssisi ixtisasını oxuyan bir gənc 500-dən yuxarı bal yığıb ildə 5 min manat oxuma haqqı verməlidir. Sanki mütəxəssis yox, Kosmik Agentlik üçün astronavt hazırlanır. Humanitar ixtisaslarda vəziyyət daha bərbaddır. Ölkəmizin marketlər şəbəkəsi ali təhsilli şəxslərin karyera mərkəzlərinə çevrilib. Məsləhət görürəm, belə marketləri çox da diqqətdən qaçırmayın. Çalışın ordakı əməkdaşlarla elmi dialoqlar aparın, çox şey öyrənəcəksiniz. Zarafat etmirəm, bu, həqiqətən belədir.

Zarafat demiş, deyirlər, bir gün Molla Nəsrəddin yolla gedərkən arxasından gələn bir yekəpər adam onun boynunun arxasına bir şillə ilişdirir. Molla arxaya çevrilib sual verir:

— Zarafat edirsən?

Adam da qayıdır ki:

— Yox.

Molla da deyir:

— Ay sağ ol, mənim də belə zarafatlardan xoşum gəlmir.

**Müəllif: Zeynal**

# Donald Trampın Prezident İlham Əliyevin Şuşa Forumundakı çıxışı ilə bağlı etdiyi paylaşım dünyaya verilən dostluq mesajıdır



“ABŞ Prezidenti Donald Tramp Azərbaycan Prezidenti İlham Əliyevin IV Şuşa Qlobal Media Forumundakı çıxışına dair məqaləni özünün "Truth Social" hesabında paylaşması onun iki ölkə arasında dostluq münasibətlərini önəmsədiyini sübut edir".

Bunu metbuata danışan deputat Nəsib Məhəməliyev bildirib. Deputat qeyd edib ki,"Breitbart News"un müxbiri Coşua Kleyn tərəfindən hazırlanan məqalə İlham Əliyevin forum çərçivəsində nəşrin suallarını cavablandırarkən səsləndirdiyi fikirləri əhatə edir:

"Yazıda Prezident İlham Əliyevin Donald Trampı "sülh adamı" adlandırması, Ermənistanla Azərbaycan arasında sülh prosesinə verdiyi töhfəyə görə ABŞ prezidentinə təşəkkür etməsi, həmçinin əvvəlki ABŞ administrasiyalarının uzun illər ərzində münaqişənin həllindən daha çox onun dondurulmuş vəziyyətdə qalmasına üstünlük verməsi ilə bağlı açıqlamaları yer alıb. Bu paylaşım Donald Trampın cənab prezident İlham Əliyevlə olan dostluq münasibətlərinə göstərdiyi dəyər kimi qiymətləndirmək olar. Son dövrlər Azərbaycan-ABŞ münasibətləri yeni strateji mərhələyə keçid edib.Prezident İlham Əliyevin 2025-ci ilin avqustunda Prezident Donald Trampın dəvəti ilə Vaşinqtona həyata keçirdiyi səfər Azərbaycan-ABŞ münasibətlərinin inkişafında mühüm dönüş nöqtəsi olub. Avqustun 8-də Ağ Evdə keçirilən görüş zamanı Azərbaycan ilə ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Anlaşma Memorandumu imzalandı. Bu sənəd iki ölkə arasında münasibətlərin gələcək inkişaf istiqamətlərini müəyyən edən mühüm siyasi çərçivə formalaşdırmaqla yanaşı həm də əməkdaşlığın yeni mərhələsinin əsasını qoydu.

Bu ilin fevralın 10-da ABŞ-nin vitse-prezidenti Cey. Di. Vensin Azərbaycana səfəri zamanı Azərbaycan Respublikası Hökuməti ilə ABŞ Hökuməti arasında Strateji Tərəfdaşlıq haqqında Xartiyanın imzalanması münasibətlərin strateji səviyyəyə yüksəldilməsinin sübut etdi. Bu gün hər iki ölkə uzunmüddətli, etibarlı və strateji xarakter daşıyan münasibətlərin inkişafında maraqlıdır. Azərbaycan ilə ABŞ arasındakı strateji tərəfdaşlıq və əməkdaşlıq regionda sülhə və sabitliyə xidmət edir. Xüsusilə də ABŞ-nin vasitəçiliyi ilə əldə edilən tarixi sülh sazişləri və irəli sürülən tranzit marşrutları (məsələn, TRIPP dəhlizi) regionda kommunikasiyaların açılmasına və qlobal ticarət yollarının şaxələnməsinə birbaşa töhfə verir. Ümumillikdə isə Azərbaycan-ABŞ arasında mövcud tərəfdaşlıq hər iki dövlətin maraqlarına cavab verməklə yanaşı, Avrasiya məkanında təhlükəsizlik arxitekturasının möhkəmlənməsinə dəstək olur".

**Yeni Balakən**

# 2026-cı ilin yanvar-iyun aylarında Balakən rayonu üzrə investisiya qoyuluşu

*2026-cı ilin yanvar-iyun aylarında rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 7192,1 min manat və ya 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 23,9 faiz çox investisiya yönəldilmişdir.*

*Ümumi sərmayə qoyuluşunun 3573,9 min manatı və ya 49,7 faizi dövlət, 3618,2 min manatı və ya 50,3 faizi qeyri-dövlət sektorunun sərmayədarları tərəfindən qoyulmuşdur. Sərmayə qoyuluşunun 6724,7 min manatı və ya 93,5 faizi tikinti-quraşdırma işlərinə sərf edilmişdir ki, bu da 2025-ci ilin yanvar-iyun ayları ilə müqayisədə 26 faiz çox olmuşdur. Tikinti-quraşdırma işlərinin 3306,7 min manatı əhalinin şəxsi vəsaiti (mənzil tikintisi) hesabına formalaşmışdır.*

***Əsəbəli Alqayev***
***Balakən Rayon Statistika İdarəsinin rəisi***





# İçməli Suyun Verilişi Bərpa Olundu

## GƏRGİN ZƏHMƏTİN NƏTİCƏSİ – XALQ ÜÇÜN VİCDANLA XİDMƏT

Uzun müddət davam edən gərgin iş və zəhmətdən sonra Balakən rayonunda içməli suyun verilişi bərpa olundu. Xətlərə suyun verilməsi rayon sakinləri üçün böyük sevinc və rahatlıq gətirdi. Bu uğurun arxasında isə görünməyən, lakin dayanmadan çalışan insanların fədakarlığı dayanır.

Rayon rəhbəri Natiq Ağayev məsuliyyətli və qətiyyətli yanaşması ilə prosesin başında oldu. O, üzdə söz verməsə də, arxa planda bütün gücü ilə çalışaraq respublika səviyyəsində aidiyyatı qurumları səfərbər etdi. Dəfələrlə dağa qalxaraq işlərin gedişini yerində izləməsi, sadə geyimi ilə işçilərin arasında olması onun idarəetməni mükəmməl bilməsi ilə yanaşı, xalqa vicdanla xidmət nümunəsi kimi yadda qaldı.

## ƏSL ZƏHMƏT SAHƏDƏ İDİ

Balakən Su Meliorasiya Sistemləri İstismarı İdarəsi, idarənin rəisi Eldəniz Xudeynatov, rəis müavini Rövşən Qardaşov,Qəza Bərpa Xidmətinin rəisi Səfa Dibirov, traktorçular Eşqin və Carullah, su ustası Ramiz, böyük “HUNDAY” markalı traktorun operatoru Ramiz, usta Fərhad Xalayev və adlarını bilmədiyimiz digər mütəxəssislər hər gün səhər saat 7-dən gecə düşüncəyə qədər çalışaraq suyun verilişini təmin etdilər. Onlar selin vurduğu ziyanı aradan qaldırmaq, yolları və xətləri bərpa etmək üçün yorulmadan mübarizə apardılar.

## BALAKƏNLİLƏRƏ ÇAĞIRIŞ

Artıq nəticə əldə olunub – Balakənə içməli suyun verilişi təmin edilib. Bildiyiniz kimi, 10 gün idi xətlər boş idi, hər yerdə su krantları açıq qalmışdı. Hörmətli Balakənlilər, xahiş olunur sudan istifadə etdikdən sonra krantları bağlayasınız. Unutmayın ki, sizin kimi suya ehtiyacı olan digər insanlar da var. Boruların dolması və suyun hər kəsə çatması üçün israfdan qaçmaq vacibdir.

Bu 10 gündə su qıtlığından hər kəs əziyyət çəkdi. İndi isə suyun dəyərini bilməli, onu qorumağı öyrənməliyik. Çünki bu zəhmət, bu fədakarlıq yalnız bir nəticə üçün idi – Balakənlilərin rahatlığı və sağlamlığı üçün.

**Yeni Balakən**

# İdman Festivalına səhər idmanı ilə start verildi





24 iyul 2026-cı il tarixində Balakən H.Əliyev adına mədəniyyət və istirahət parkında Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin yaradılmasının 32-ci ildönümünə həsr olunmuş Balakən İdman Festivalına böyük coşqu ilə start verildi. Tədbir Balakən Rayon İcra Hakimiyyətinin, Balakən rayonu üzrə gənclər və idman sektorunun, Balakən Olimpiya İdman Kompleksinin, Balakən Gənclər evinin, Balakən Uşaq-Gənclər İdman və Şahmat məktəbinin birgə təşkilatçılığı ilə gerçəkləşdi.

Festival səhər idmanı ilə açıldı. Parkda toplaşan 500-dən artıq iştirakçı günə sağlam həyat tərzini təbliğ edən kütləvi idman hərəkətləri ilə başladı. Daha sonra müxtəlif idman bölmələrində isinmə hərəkətləri keçirildi, peşəkar məşqçilərin rəhbərliyi ilə ustad dərsləri və masterklaslar təşkil olundu.

İki gün davam edəcək festival çərçivəsində iştirakçılar maraqlı idman yarışlarında güclərini sınayacaq, əyləncəli proqramlarda iştirak edəcək, həmçinin peşəkar idmançıların nümunəvi çıxışlarını izləyəcəklər. Tədbir həm gənclərin sağlam həyat tərzinə marağını artırmaq, həm də idmanın kütləviliyini genişləndirmək baxımından mühüm əhəmiyyət daşıyır.

**Yeni Balakən**



# TENERA – Balakənin incisi, ailəvi istirahətin ünvanı!



TENERA – Ailənin və dostların sevimli istirahət məkanı

Balakənin təmiz dağ havası, sərin çayı və möhtəşəm mənzərələri ilə birləşən TENERA sizə unudulmaz anlar yaşadır. Burada hər şey – rahatlıq, dadlı yeməklər, gülərüz xidmət – bir araya gələrək qonaqlarına xüsusi bir atmosfer bəxş edir.

Təbiətin qoynunda – sağ tərəfdə şəhərin işıqları, sol tərəfdə dağların və meşələrin əzəməti. Balakən çayının gur səsi fonunda samovar çayından udum-udum içmək, təbiətin orijinal gözəlliyini seyr etmək – bu hissi yalnız TENERA yaşadır.

Mətbəx zənginliyi – müxtəlif ölkələrin mətbəxlərindən seçilmiş ləziz təamlar, rəngarəng menyu və sərfəli qiymətlər. Burada hər kəs öz zövqünə uyğun bir ləzzət tapacaq.

Xidmət keyfiyyəti – mədəni, mərifətli və gülərüz personal hər bir qonağa dəyərli olduğunu hiss etdirir. Bir dəfə gələn, ikinci dəfə gəlmək üçün səbəb axtarır.

Hər fəsildə gözəl – istər yazın yaşıllığında, istər payızın rəngarəngliyində, istərsə də qışın təmiz havasında TENERA öz cazibəsini qoruyur. Məclisləriniz, xüsusi günləriniz üçün hər cür şərait burada mövcuddur.

Bu ideyanın müəllifi və qurucusu – dəyərli iş adamımız Fuad müəllimdir. Onun zəhməti ilə TENERA bu gün bölgənin ən seçilən istirahət mərkəzinə çevrilib.

TENERA – qapıları hər zaman açıqdır, üzü sizə doğrudur. Gəlin, özünüz görün və dostlarınıza da tövsiyə edin.

Biz bu gün orda idik..Amma deyəsən hələ də ordayıq..

TENERA-unudulmaz anların yarandığı,yaddaşlarda sevgiylə qaldığı yerdir.

**Yeni Balakən**

MƏSUL REDAKTOR: Ramazan ABALOV

Ünvanımız: Balakən şəhər. H.Əliyev pr.40
www.yeni balaken.az
ramazanabal@gmail.com
Mob: 050 518 17 60

HESAB NÖMRƏMİZ:
VÖEN 3800335882
H/h AZ60IBAZ41040019449452514345
Azərbaycan Beynəlxalq Bankın Balakən Filialı.
Kod 805959, VÖEN 9900001881.
M/h AZ03NABZO135010000000002944. IBAZAZ2X

Qeydiyyat №: 7CADF329A82153
Qəzet Mingəçevir şəhər Poliqrafiya müəssisəsində ofset üsulu ilə çap olunmuşdur.
Tiraj 100